# "Ookla" Azərbaycanda qonaqpərvərlik sahəsində bağlantının sürətləndirilməsi üzrə təşəbbüsə start verir

**İnternet sürətinin və şəbəkə keyfiyyətinin ölçülməsi üzrə lider şirkət olan "Ookla" qonaqpərvərlik sektoru üçün "Speedtest Certified" adlı yeni məhsulunun ilk təqdimatını Bakıda keçirib.**

AZƏRTAC xəbər verir ki, "Ookla"nın yeni məhsulunun əsas məqsədi sektorda fəaliyyət göstərən bizneslərin internet infrastrukturunu qiymətləndirmək və sertifikasiyadan keçirdərək internet keyfiyyətini yüksəltmək və qonaqlara dünya səviyyəli rəqəmsal təcrübələr təqdim etməkdir.

Tədbir Bakıda İnformasiya və Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA), Azərbaycan Turizm Bürosu (ATB) və Azərbaycan Hotel Assosiasiyası (AHA) birgə təşkilatçılığı ilə keçirilib. Tədbirdə turizm, telekommunikasiya və infrastruktur sahələrindən 100-dən artıq məsul şəxs iştirak etmiş və qapalı məkanlarda internet bağlantı təcrübəsindən gözləntiləri müzakirə olunub.

"Yüksəkkeyfiyyətli, etibarlı və davamlı bağlantı artıq lüks deyil - bu, hər bir qonağın gözləntisinə çevrilib və rəqabətədavamlı, yüksəksəviyyəli qonaq təcrübəsinin əsas elementidir. Bu pilot proqramın yaradılması ilə biz Azərbaycana qonaqpərvərlik sektorunda internet bağlantısının keyfiyyətinin müəyyənləşdirilməsi, yoxlanılması və təqdim olunması sahəsində yeni qlobal meyar formalaşdırmağa kömək edirik. Qonaqpərvərlik sektoruna dünya səviyyəli rəqəmsal təcrübə təqdim etmək üçün İKTA, ATB və AHA ilə tərəfdaşlıqdan qürur duyuruq", - deyə "Ookla"nın prezidenti və baş icraçı direktoru Stiven Bay bildirib.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Səməddin Əsədov bildirib ki, bugünkü sammit kimi platformalar təkcə məlumat və analitik baxışların paylaşılması üçün deyil, həm də Azərbaycanın rəqəmsal gələcəyi üzrə ümumi baxışın formalaşdırılması üçün böyük əhəmiyyət daşıyır.

ATB-nin baş icraçı direktoru Florian Zenqstşmid vurğulayıb ki, müasir dövrdə rəqəmsal əlaqəlilik turizmdə rəqabətqabiliyyətlilik və dayanıqlı inkişafı təmin edən strateji amillərdən biri kimi çıxış edərək bu sahədə

İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARI AGENTLİYİ

dövlət-özəl tərəfdaşlığının möhkəmlənməsini təşviq edir. Azərbaycanda rəqəmsal infrastruktur üzrə son illərdə əldə edilən nailiyyətlər il boyu turizmin inkişafını dəstəkləmək və ölkəni irimiqyaslı beynəlxalq tədbirlər üçün etibarlı ev sahibi kimi mövqeləndirmək baxımından möhkəm zəmin yaradır.

Tədbir çərçivəsində sertifikatlaşdırma prosesinin canlı nümayişi də keçirilib. Bu proses yerində radio tezliyin (RF - Radio Frequency) keyfiyyətinin qiymətləndirilməsini, real performans testlərini və infrastrukturun dayanıqlığını əhatə edir. Tədbirdə təqdim olunan "MEO Arena" və "The Social Hub Rome" kimi nümunəvi təcrübələr göstərib ki, üçüncü tərəfin təsdiqlədiyi qiymətləndirmə aparıcı məkanlara sponsorları cəlb etməyə və qonaqların etimadını gücləndirməyə kömək edir.

"Speedtest"in qlobal səviyyədə etibar edilən test metodologiyasından və güclü brend tanınmasından istifadə edən "Speedtest Certified" proqramı qonaqpərvərlik ekosisteminin bütün iştirakçıları üçün aydın üstünlüklər yaradır. Bu təşəbbüs Azərbaycanın "Speedtest Global Index"də mövqeyini daha da möhkəmləndirir və ölkənin rəqəmsal baxımdan inkişaf etmiş turizm məkanı kimi nüfuzunu gücləndirir.

Qeyd edək ki, "Ookla" internet sürətinin və şəbəkə keyfiyyətinin ölçülməsi üzrə qlobal lider olaraq "Speedtest", "Downdetector", "Ekahau" və "RootMetrics" brendlərinin ekspertizasını birləşdirərək misilsiz şəbəkə və bağlantı analitikası təqdim edir. Çoxmənbəli məlumatları sənaye üzrə aparıcı biliklərlə birləşdirərək, şəbəkə performansı göstəricilərini strateji və tətbiq oluna bilən analitik nəticələrə çevirir.

Azərbaycan.- 2026.- 30 yanvar (№18).- S.11.